# BEYNƏLXALQ MÜƏLLİMLƏR GÜNÜNDƏ



## Lənkəran

Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş tədbiri Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Şəhanə Əhmədova açaraq rayonun pedaqoji kollektivlərini peşə bayramı münasibətilə təbrik etmiş, şərəfli işlərində onlara müvəffəqiyyətlər arzulamışdır. Bildirmişdir ki, son illərdə təhsil ocaqlarının yeniləşdirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində xeyli iş görülmüşdür.

Rayonda 36 məktəb üçün yeni bina, 4 məktəb üçün əlavə korpuslar tikilmiş, 4 məktəb müasir standartlar səviyyəsində əsaslı təmir edilərək istifadəyə verilmişdir. Darquba kənd tam orta məktəbi üçün 180 şagird yerlik təzə bina inşa olunmuş, müasir inventar və avadanlıqlarla təchiz edilərək "Bilik günü" şagirdlərin ixtiyarına verilmişdir.

Məktəblərdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirilir. İnformatika kabinetlərində 1126 kompüter quraşdırılmış, 68 məktəb internet, şəhər 6 saylı tam orta məktəb isə elektron təhsil şəbəkəsinə qoşulmuşdur.

Ş.Əhmədova keçən dərs ilində qazanılmış uğurlardan danışaraq demişdir ki, rayonun tam orta məktəblərini bitirən məzunlardan 436 nəfər ali məktəblərə qəbul olunmuşdur. Tələbə adına layiq görülmüş gənclərdən 51 nəfər 500 baldan yuxarı, 25 nəfər 600-dən çox bal toplamışdır. Şəhər 10 nömrəli tam orta məktəbi qızıl medalla bitirmiş Lalə Cəfərli rayon üzrə ən yüksək nəticə qazanaraq 690 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olmuşdur.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov rayonun pedaqoji ictimaiyyətini əlamətdar bayram münasibətilə təbrik edərək ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu hər iki dövrdə müəllim əməyinə yüksək qiymət verdiyini, təhsil işçilərinin sosial qayğılarını daim diqqət mərkəzində saxladığını, bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həmin siyasəti uğurla davam etdirdiyini vurğulamışdır. O, rayonda məktəb tikintisinə, gənc nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirildiyini, rayonun təhsil müəssisələrində Dövlət Proqramlarının, Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının uğurla həyata keçirildiyini bildirmişdir.

İcra başçısı T.Qaraşov rayonun ictimai-siyasi həyatında müəllimlərin rolunu yüksək qiymətləndirmiş, təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində uğurların daha da artırılacağını əminliklə qeyd etmişdir.

Sonra gənc nəslin təlim-tərbiyəsində səmərəli fəaliyyətinə görə bir qrup təhsil işçisinə Lənkəran Şəhər İcra Hakimiyyətinin, şəhər təhsil şöbəsinin fəxri fərmanları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Şirniyyat stolu arxasında davam edən tədbirdə rayonun incəsənət ustalarının ifasında şən, oynaq mahnılar səslənmişdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

## GƏNCƏ

Gəncə Dövlət Universitetinin II tədris binasının iclas zalında Beynəlxaq Müəllimlər günü təntənəli qeyd olundu. Dövlət himni ilə başlayan tədbiri universitetin rektoru professor Yusif Yusibov giriş sözü ilə açaraq ulu öndər Heydər Əliyevin "Mən müəllimdən uca ad bilmirəm" çox qiymətli kəlamını xatırladaraq, Müəllim Gününün tarixinə qısa bir nəzər saldı bu günün Azərbaycanda xüsusi ilə, təmtəraqla qeyd edildiyini vurğuladı. Bəli, dahi liderin siyasi kursunda təhsil ən önəmli yer tutduğunu vurğuladı. Bu gün ölkədə təhsilə diqqət və qayğı ən öncül prioritet məsələlərdəndir. Professor Yusif müəllim rəhbərlik adından universitet əməkdaşlarını təbrik edərək onlara möhkəm can sağlığı və işlərində yeni-yeni uğurlar arzuladı.

Sonra natiq, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müəllimlərə göstərdiyi misilsiz qayğıdan, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün dünya standartlarına uyğun maddi-texniki bazanın yaradılmasından danışaraq, Universitetin də bu inkişafdan kifayət qədər bəhrələndiyini diqqətə çatdırdı. Bu baxımdan pedaqoji kollektiv yaradılan şəraitdən maksimum istifadə edərək bacarıqlı, savadlı mütəxəssislərin hazırlanmasında, tədrisin yüksəldilməsində, elmi sahədə nailiyyətlərin qazanılmasında yaxından iştirak edir. Rektorluq tərəfindən bu bayram günündə əməkdaşların zəhmətini qiymətləndirmiş, onların bir qrupu təşəkkürnaməyə, fəxri fərmana, bir qrupu isə Azad Həmkarlar İttifaqı Komitəsi tərəfindən pul mükafatına layiq görülmüşdür.

Bədii hissədə maraqlı musiqi nömrələri, kiçik tamaşalar tədbiri daha da canlandırdı. Pedaqoji fakültənin tələbəsi Əfsanə Mövlayevanın qiraətlə oxuduğu "Müəllim" şeiri, Sərxan Məmmədovun ifasında səslənən "Məmləkətim", "Dilkeş", "Payız", Yusif Məmmədovun "Sənə də qalmaz", "Ulu Öndər" mahnısı, "Şahinlər" qrupunun parodiyası, "Gəncəm" vokal qrupunun çıxışı alqışlarla qarşılandı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**